**“Seleksiya nailiyyətləri haqqında”, “Dövlət rüsumu haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 15-ci və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Seleksiya nailiyyətləri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 4, maddə 269 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1.1. beşinci abzas aşağıdakı redaksiyada verilsin:

**“seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatı (bundan sonra – Reyestr)** – seleksiya nailiyyətləri (sortlar və hibridlər, cinslər), qeydiyyata alınmış toxum əməliyyatçıları, seleksiya nailiyyətlərindən istifadə ilə əlaqədar bağlanmış müqavilələr və toxumluq əkinlər barədə məlumatların (qeydlərin) məcmusu;

altıncı abzasda “dövlət reyestrinə” sözləri “Reyestrə” sözü ilə əvəz edilsin;

1.2. 12-ci maddə üzrə:

1.2.1. birinci hissədə “dövlət reyestrində” sözləri “Reyestrdə” sözü ilə əvəz edilsin;

1.2.2. ikinci hissədə “dövlət reyestrinə” sözləri “Reyestrə” sözü ilə əvəz edilsin;

1.2.3. aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Reyestr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən elektron qaydada aparılır.”;

1.3. 15-ci maddənin birinci hissəsində “Dövlət reyestrinə” sözləri “Reyestrə” sözü ilə əvəz edilsin;

1.4. 16-cı maddənin ikinci hissəsində “orqanda” sözü “orqan (qurum) tərəfindən Reyestrdə” sözləri ilə əvəz edilsin;

1.5. 18-ci maddənin birinci hissəsində “dövlət reyestrində” sözləri “Reyestrdə” sözü ilə əvəz edilsin;

1.6. 24-cü maddənin ikinci hissəsində “reyestrdə” sözü “Reyestrdə” sözü ilə əvəz edilsin;

1.7. 26-cı maddənin birinci və üçüncü hissələrində “dövlət reyestrinə daxil edilmiş” sözləri “Reyestrdə qeydiyyata alınmış” sözləri ilə əvəz edilsin;

1.8. 33-cü maddənin birinci hissəsi üzrə:

1.8.1. ikinci abzasda “qeydiyyatda olan” sözləri “Reyestrdə qeydiyyata alınmış” sözləri ilə əvəz edilsin;

1.8.2. üçüncü abzasda “bilərəkdən başqa qeydiyyatda olan sortun və cinsin adı” sözləri “Reyestrdə qeydiyyatda olan başqa sortun və cinsin adının” sözləri ilə əvəz edilsin;

1.8.3. dördüncü abzasa “verilən ad” sözlərindən sonra “Reyestrdə” sözü əlavə edilsin;

1.8.4. səkkizinci abzasda “dövlət reyestrində” sözləri “Reyestrdə” sözü ilə əvəz edilsin.

**Maddə 2.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626, № 12 (I kitab), maddələr 1118, 1129; 2026, № 1, maddələr 8, 13, 20; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 18.89-cu maddə əlavə edilsin:

“18.89. Toxumçuluq sahəsində fəaliyyət göstərən toxum əməliyyatçılarının qeydiyyatına və toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsinə görə:

18.89.1. seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarışın verilməsi – 50 manat;

18.89.2. seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarışın dublikatının verilməsi – 10 manat;

18.89.3. toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsi (bir sənəd) – 25 manat.”.

**Maddə 3.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16, № 3, maddə 215, № 4 (I kitab), maddə 314, № 5, maddə 433, № 6, maddə 524, № 7, maddə 626, № 8, maddə 733; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) 3 nömrəli Əlavə - “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın 87-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 88-ci maddə əlavə edilsin:

“88. toxum əməliyyatçılarının qeydiyyata alınmasına dair seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemindən çıxarış.”.

**Maddə 4.** “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11,

maddə 1679 (Cild I); 2025, № 6, maddə 522) aşağıdakı məzmunda 5.4-1-ci maddə əlavə edilsin:

“5.4-1. Bu Qanun bitki sortlarının toxumlarına dair məcburi tələblərə şamil edilmir.”.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 iyul 2026-cı il
№ 456-VIIQD